# Qazaxda mədəniyyət və istirahət parkları



***Regionların sosial-iqtisadi inkişafı haqqında Dövlət proqramına uyğun olaraq Azərbaycanın hər bir bölgəsi günü-gündən çiçəklənir. Ölkəmizdə geniş miqyasda yenidənqurma, quruculuq, təmir-tikinti və abadlıq işləri aparılır.***

Bütün bunlar ulu öndərimiz, ümummilli liderimiz, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin bizlərə miras qoyduğu siyasi kursun, onun ideyalarının nəticəsində, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında baş verir. Ölkəmiz dinamik surətdə inkişaf edir, dünyanın qüdrətli və qüvvətli dövlətlərindən birinə çevrilir.

Azərbaycanın Qərb qapısı sayılan şairlər vətəni Qazax mahalı bu gün inkişafda olan regionlardan biridir. Rayonumuz getdikcə öz simasını dəyişir, abadlaşır və gözəlləşir. Küçələri gəzdikcə görülən işlərə, park və xiyabanlardakı mənzərələrə baxdıqca adamın ürəyi açılır.

Qazax rayonunda mədəniyyət və istirahət parklarının sayı getdikcə artır.

Ağstafa çayının sağ sahilində axarlı-baxarlı gözəl bir guşədə Heydər Əliyev parkı salınmış və bu parkda ulu öndərin qranitdən hazırlanmış əzəmətli heykəli qoyulmuşdur. Parkın gözəlliyi adamı valeh edir. Parkda rayonda ilk dəfə VİFİ (naqilsiz internetə qoşulma) avadanlığı və aparatı quraşdırılmışdır. Təqdirəlayiq haldır ki, parkın hər hansı guşəsində əyləşib ulu öndərin həyat və fəaliyyətindən hərtərəfli məlumat almaq olur.

Qazaxın mərkəzindəki "Mütəfəkkirlər parkı" ən gözəl istirahət, əyləncə və gəzinti yeridir. Burada çox rahat və müasir üslubda quraşdırılmış oturacaqlar, fəvvarə kompleksi yaradılmışdır. Azərbaycan elmində, maarifində, mədəniyyətində, ədəbiyyatında, incəsənətində, hərb tarixində xüsusi xidmətləri olmuş 12 nəfər qazaxlının büstləri həmin parkda ucaldılmışdır. Böyük zövqlə hazırlanmış bu park istirahət etməyə gələnlərə mənəvi dinclik və rahatlıq verir.

Rayon rəhbərliyi ana və uşaqlara da qayğısını unutmayıb. Qazax Rayon Mədəniyyət Sarayının yanında "Ana və uşaq" parkı təşkil edilmişdir. Ana və uşaqların mənalı istirahət etmələri üçün parkda hər cür şərait vardır.

Bu yaxınlarda daha bir mədəniyyət və istirahət parkı qazaxlıların istifadəsinə verilmişdir.

Azərbaycanın xalq yazıçısı, görkəmli ictimai xadim, alim, pedaqoq İsmayıl Şıxlı ədəbiyyatımıza "Ayrılan yollar", "Dəli Kür", "Ölən dünyam" kimi qiymətli əsərlər bəxş etmişdir. İsmayıl Şıxlı ürəklərdə, talelərdə yaşayan bütöv şəxsiyyət, xalqın qəlbində öz əzəmətli heykəlini ucaltmış müdrik insandır.

Qazaxda qüdrətli söz ustaları, sənət korifeyləri Molla Vəli Vidadinin, Molla Pənah Vaqifin, Səməd Vurğunun heykəlləri ucaldılmışdır.

Hər adama heykəl qoyulmur. Xalq şairi Osman Sarıvəlli demişkən:

*Heykəl qoyulmayır hər bir*
*ölənə,*
*Olsa da qondarma şöhrəti,*
*adı,*
*Belə yer, belə bağ, belə*
*gül-çiçək,*
*Çoxuna əlbəttə nəsib*
*olmadı.*

Belə bir xoşbəxtlik, belə bir qismət böyük ədibimiz əbədiyaşar sənətkarımız İsmayıl Şıxlıya nəsib oldu.

Qazax Rayon İcra Hakimiyyətinin inzibati binası yanında xalq yazıçısı İsmayıl Şıxlının şərəfinə gözəl bir park salınmış, həmin parkda yazıçının möhtəşəm heykəli qoyulmuşdur. Xeyirxah işdə əməyi olanların hamısına eşq olsun! - deyirik.

Sevindirici haldır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və onun xanımı millət vəkili Mehriban Əliyeva bu ilin mayında Qazax rayonuna səfəri zamanı abidənin açılış mərasimində iştirak etmişlər. Cənab Prezident İ.Əliyev qırmızı lenti şəxsən özü kəsmiş, bu münasibətlə bütün qazaxlıları təbrik etmiş, özünün ən xoş arzularını bildirmişdir.

Hörmətli Prezidentimiz İlham Əliyev rayonumuzda olarkən Heydər Əliyev parkına və "Mütəfəkkirlər parkı"na da baş çəkmiş, görülən işlərdən məmnun olduğunu söyləmişdir.

***Qazaxda mədəniyyət və istirahət parklarının yenidən qurulması, bərpası və yenilərinin tikilməsi əhali tərəfindən razılıqla qarşılanır. Uşaqların və böyüklərin istirahərt etmələri üçün parklarda hər cür şərait yaradılmışdır. Parklarda təmizliyə, səliqə-səhmana xüsusi fikir verilir.***

K. KAZIMLI